# Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin mənzil qərargahında Türkiyədə baş vermiş zəlzələdə həyatını itirən insanların xatirəsinə həsr olunmuş guşəni ziyarət edib

Martın 30-da Türkiyə Respublikasının Birinci xanımı Əminə Ərdoğan, Milli Məclisin Sədri Sahibə Qafarova, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Qutteres və digər rəsmi şəxslər BMT-nin Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində yerləşən mənzil qərargahında fevralın 6-da Türkiyədə baş vermiş zəlzələdə həyatını itirən insanların xatirəsinə həsr olunmuş guşəni ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ziyarətçilər həlak olunların xatirəsini yad edib, burada yaradılmış sərgi ilə tanış olublar.

Sonda ziyarətçilər xatirə kitabını imzalayıblar.

***"Azərbaycan"***





Azərbaycan.- 2023.-1 aprel.- S.2.